# KAŞ Kİ, "KAŞ Kİ"LƏR OLMAYAYDI...

Dünya bir pəncərəymiş, hər gələn baxıb keçər. Hikmətli sözmüş. Dünyanın əzəli- axırı haraymış? Bilmədik. Kaş ki, biləydik. Bu dünya fani dünyaymış, heyf ki, bilmirik. Qalan yaxşılıq imiş, gedən bədən. Qalan ruhmuş, göylərdə başımız üstündə dolaşır, gedən nəfəsmiş. Bilmədik. Mövlanə demişdir:

- Mal sahibi, mülk sahibi,
Hanı bunun ilk sahibi.
Mal da yalan, mülk də yalan.
Varsa əgər, bir az da sən oyalan.

Mal- mülk sahibi olmaq da insana hər şey vermədiyini başa düşsəydik... kaş ki. Təəssüf ki, canından yaxın insan əlindən qeyb olub getdikdən sonra çox şeylərə kaş ki deyirsən. İnsan xislətidir, neyləmək olar.

Qəlb sirdaşım, can yoldaşım, həyatını, canını vətəninə, ailəsinə, qohum-qardaşlarına "uf" demədən şam kimi əritdi. Hamını fikirləşdi, özündən başqa. Hamını anası-atası, balası, övladı kimi istədi- özündən başqa. Cəfalar çəkdi. Gecə-gündüz yorulmadan, tükənmədən çalışdı, vuruşdu. Hamının rifahı üçün özünü oda-közə vurdu-özünü unutdu. Tükənmədi dedim, ancaq tükəndi. İllərlə istirahət etmədən, sağlamlığına fikir vermədən monoton bir həyat yaşadı. Dövlətini, xalqını göz bəbəyi kimi sevirdi. Gecə- gündüz dövlətçiliyin keşiyini çəkməyi özünə borc bildi.

Metro onun iş yeri yox, birinci ailəsi idi. Evdə - yataq otağında 4 telefon aparatı var idi. İkisi mobil, biri ev, biri də metronun daxili telefonu. Vaxt- bivaxt zənglər gəlirdi. Gündüzlər işdə olurdu, gecələr isə 4 telefon susmaq bilmirdi. Metronu evdən idarə edirdi. Mən hərdən yuxusuz qalmağımdan şikayət edəndə cavabı belə olurdu: metro gecə- gündüz işləyir, mən necə yata bilərəm?

Razılaşırdım. Gündüzlər işdə olurdu. Saat 8.00-dan axşam saat 21.00- 22.00-a qədər. Yeməyini də "ayaqüstü" yeyirdi. Arada tədbirlərə, dövlət səviyyəli görüşlərə gedirdi. Xəstəxanalara baş çəkirdi. Xəstə qohumlara, dostlara, metro işçilərinə yardım edir, onların könlünü alırdı. Qohumların, dostların xeyrini, şərini buraxmazdı, onları sıxıntı çəkməyə qoymazdı. Ancaq, metronun işçilərinə başqa bir münasibət göstərərdi. Onlar sanki onun ən yaxınları, doğmaları idi. Onlara aybaay maaşlarından çıxmaqla illik kredit verdirərdi. Gənclər evlənərkən, əgər hər ikisi metro işçisidirsə, evlərinin mebelini alardı, toy xərcinə kömək edərdi. Metronun rəhbər işçiləri ilə birlikdə toyda iştirak edər, gənclərə xeyir-dua verərdi. Bayramlarda- yeni il şənliyində, Novruz, Qurban bayramında imkansız işçiləri sevindirər, hamısına mükafat yazdırardı.Qurban bayramında qurbanlar kəsdirər, kasıb, şəhid, qazi və yetim uşaqlı ailələrə dağıdardı. İnsanlara sevgisi böyük idi. Küçədə dilənən uşağı da sevindirər, əyilib başını sığallayardı. Qəlbi, ürəyi geniş idi. Onun ürəyinə minlərlə insanlara sevgi yerləşərdi. Onu haradasa, kimsə aldadanda, yalan söyləyəndə deyirdi, qoy olsun, onun buna ehtiyacı var ki, haqq- hesabı düz demir. O, hər şeyi aydın bilirdi, görürdü, ancaq çox zaman üzə vurmurdu. Çox təəssüf ki, bundan istifadə edən insanlar da var idi.

Dostlarına çox sədaqətli idi. Onları bəlkə də, qardaşdan artıq istəyirdi. Hər kənddən, hər bölgədən, hər ölkədən dostları var idi. Müdrik qocalar demişkən, hər kəndə bir ev tikmişdi. Minlərlə insanın qəlbində yuva qurmuşdu.

Tez coşurdu, tez hirslənirdi, ancaq tez də barışırdı. Əsəbləşərdi: ancaq başqalarının səhvinə görə özünə cəza verərdi. Kimsə onun haqqında pis danışırsa, demək ona daha çox yaxşılığı keçibmiş.

"Yaşaması mümkün olduğu halda, yaşana bilinməmiş xoşbəxtliklər..." F.Dostoyevski "kaş ki"lərin tərifini belə vermiş...

Şəms Təbrizi yazıb:
Həyat bir şərabdı- hamı içəcək.
Tabut bir atdı- hamı minəcək.
Məzar bir evdir- hər kəs girəcək.
Ölüm bir yuxudur- hər kəs görəcək.

Kaş ki, yazımı davam etdirə biləydim. Etdirəmmədim, davamı gəlmədi. Çünki o artıq həyatda yoxdur, yaşaya bilmədi, yaşasaydı yazının arxası gələrdi. Həyatı param-parça oldu. Yamamaq istədik- yamayammadıq. Yaşatmaq istədik - yaşadammadıq. Ömrü sapa düzülmüş mirvari dənələri kimi yerə səpələndi. Döşürmək istədik-döşürəmmədik. Kaş ki...



Qoy ölüm heç sevinməsin, o daim bizimlə olacaq, bizim yanımızda olacaq. Bizdən cismən ayrılıb, ruhən, fikrən bizim yanımızdadır.

Əzizlərim, sizi sevən, sizə candan yaxın olan insanların qəlbini qırmayın, vaxt gələr həsrət qalarsınız səsinə, gülüşünə, duruşuna, yerişinə, nəvazişinə.Tanrı bizə nə az, nə çox, dübbədüz 48 il bir yerdə yaşamağı rəva gördü: 18 oktyabr 1976 - 18 oktyabr 2024-cü illər arası.

Yaxşı ki, həsrətin tüstüsü yoxdur,
Göz-gözü görməzdi yer kürəsində.

***Hüseyn Arif***

Nə biləsən külə dönür ürəyim,
Bir şeyin ki, tüstüsü yox, hisi çox.

***Sücayət Kəlbəcərli***

Salatın Əhmədova, 48 illik enişli-yoxuşlu, təlatümlü, dalğalı həyatının şahidi, ömür-gün yoldaşı mentalitet:

***Tağı Əhmədov***

Belə demək olar ki, mən az qala metropolitendə anadan olmuşam. 44 il metropolitendə işləmişəm. Metronun 30 illiyindən başlayaraq metropolitendə rəhbər olmuşam. İşçilərin hamısının, demək olar ki, soyadı, evləri ilə tanıyırdım. İnsanlıq naminə etmişəm hər şeyi. Məsələn, işçilərə faizsiz ssuda verirdim. Kiminsə övladı ali məktəbə qəbul olurdusa,imkanı yox idisə, ödəməyə deyirdim, gəl,ərizə yaz, bir illikfaiz almadan sənə suda verirəm. Ehtiyacını ödə.Bir il müddətində qaytararsan.İnsanlar da öz işlərini görürdü. Onkoloyi xəstələrə, ürəkdən şuntlama əməliyyatına gedənlərə yardım edilirdi. Evlənənlərin hər ikisi metropoliten işçisidirsə, onlar üçün mebel dəsti alınırdı. Çünki, biz bir ailə idik.Və mən elə fikirləşirdim ki, ailənin başçısı kimi hardasa metronun bir işçisi acdırsa mən də acam.

*(Baku post saytı).*

**Qəndab SADİQ**

CAN BABAM

Bir süngər olubàn çəkdin sinənə
Hamının dərdini, bütün yükünü.
Heç kim düşünmədi, "dedi: mənə nə?"
Tərpətmədi kimsə bir tükünü də.

Səndin ətrafına həmişə dayaq,
Deyirdin "Gəlin biz yaxşılıq yayaq"
Rast gəldi yoluna ayaqdan çəkən
Bilmədən oxşadın namərd könlünü.

Can qoydun xalqının hər an yolunda,
Bədxahlar göründü min cür donunda.
Onlar da tapdılar cəza sonunda,
Məhv edə bilməzdi, can baba, səni.

Gecələr yatmırdın qalırdın oyaq,
Hər bir çalışandan alırdın soraq,
Xalqın keşiyində deyirdin duraq,
Gecəyə qatırdın xoş gündüzünü.

Sərt qayalar kimi yıxılmazdın sən,
Yenə öndə idin olsa duman, çən,
Görməsəydin əgər bir insanı şən,
Qaraldardın özün xöşbəxt gününü.

Bir də olmayacaq kövrək qəlbindən,
İnsanları hiss edirdin dərindən,
Qorxmurdun heç nədən, ötüb şərindən,
Deyirdin nə varsa tutub üzünü.

Bir ağsaqqal kimi sən idin rəhbər,
Dərin dəryalara salmışdın lövbər,
Əzəldən yaranıb səndə bir cövhər-
Düşmədin taxtından, dedin sözünü.

Kimlər gəldi, kimlər keçdi dünyadan,
Yazıbdır taleyi uca yaradan,
Yaxşılar yaşasın, pislər aradan,
Çıxıb gedərdilər, alıb köçünü.

QƏZƏL

Qəlbim sızıldayır, başqa bir dərdim var.
Rahatlıq tapmıram, ağlamağa fəğan istərəm.

Dərdmi deyim, əzabmı deyim, bir biləydim kaş,
Olaydı könlüm fərah, ilahidən dərman istərəm.

Göz yaşlarım quruyub, bir belə nalə içində fəqət,
Qəlbimdən axan sellər üçün dəryayi-ümman istərəm.

Mən ki dərdimi cümlə cahana bildirməz idim,
Dağ boyda qəmimi öz canımdan pünhan istərəm.

Zəbanədən yanıban bu dünyada yaşaram,
Torpaq altda üşüyən can parçama yorğan istərəm.

Mən həmsöhbət olarmıydım yanıma gələr isən,
Cənnətindən sənə yoldaş olan bir qılman istərəm.

Qocalıban quruyan ağaclar, min bir budaq olmayır,
Hər kəsə qol-qanad, gələnimə təzə- tər fidan istərəm.

Möcüzələrə inanmıram daha sehri ilə ofsunlaya,
Röyalarda, xəyallarda görüşməyə güman istərəm.

Yağış olub selə dönən göz yaşlarımdan
Gözəlləşən göy çəmən, gülzari-məkan istərəm.

Çoxmu baxacaq bu həsrətli baxışlar yollara,
Tanrıya dua edibən, səbrü- iman istərəm.

*(Davamı 3-cü səhifədə)*

*(Əvvəli 2-ci səhifədə)*

**BABAMSIZ ALTI AY**

Artacaq günbəgün qəlbimdə hicran,
Sevgim tükənməyir, ötsə də zaman,
Sənsizlik atəşdən də yamandır-yaman,
Gözləyir gözlərim daim yolunu.

Haralara getsəm, fikrimdə ancaq,
Dünyamız olubdur gör neçə bucaq,
Kaş açardın yenə isti bir qucaq,
Boynuma dolardın sən öz qolunu.

Çıxmaz yaddaşımdan uca görkəmin,
Qəti addımların - özündən əmin,
Elə bil qurmuşdun hər yerdə zəmin
Qazanıb hörmətin ən çox bolunu.

Çox sevməzdin sən susub qalmağı,
Təbiət qoynunda seyrə dalmağı,
Min könlü xoş edib çiçək almağı,
Seçərdin ən gözəl gülün kolunu.

Səndən başqasıyçün darıxmıram heç,
Bir yaxşılıq eylə, evimizə keç,
Kömək də edərəm, bir əlacı seç,
Mən sənin sol qolun, qurtar solunu,

Biz səndən küsmədik, qayıt evə gəl,
Yenə qucaqlaşaq, uzat mənə əl,
Mən xoşbəxt olaram, olmasa əcəl,
Bu dünyadan bir də salsan yolunu.

**SƏSLƏYİR SƏNİ**

Son dəfə görüşüb ayrılanda mən,
Bilmədim, bir daha görmərəm səni.
Yaxından baxdıqca gözlərinə mən
Həmin baxışlarım istəyir səni.

Xəyalən danışdım yenə bu gecə,
Ayrılıq yamandır, dözüm mən necə?
Gözlərim kədərdən ağlar gizlicə,
Qapanıb özümə səslərəm səni.

Gözyaşı tökürəm məzar başında,
Səni görmək ağır məzar daşında,
Əzabdır sənsizlik cavan yaşımda,
Ağaran zülflərim süsləyir səni.

Qəlbim paramparça qırılır hər gün,
Dayanıram kənar, hər şeydən küsgün.
Nə harayım çatır, nə də ki bir ün.
Sənsizliyim susqun izləyir səni.

Yuxumda görəndə durmaq istəməm,
Həqiqət kimidir, pozmaq istəməm,
Xatirəmi sənsiz yazmaq istəməm,
Quruyan qələmim gözləyir səni.
Darıxır ürəyim istəyir səni.

* * *

Qəlb sızıltısından da savayı başqa dərdim var,
Rahatlıq tapammıram, ağlamağa fəğan istərəm.
Dərdmi deyirəm, əzabmı deyirəm, bir biləydim kaş,
Olaydı könlüm fərah, İlahidən dərman istərəm.

Gözyaşlarım quruyub bir belə nalə içində fəqət,
Qəlbimdən axan sellər üçün dəryayi-ümman istərəm.

Mən ki dərdimi cümlə-cahana bildirməz idim,
Dağ boyda qəmimi öz canımdan pünhan istərəm.

Hərarətdən yanıban bu dünyada qalarkən,
Torpaq altda üşüyən can parçama yorğan istərəm.

Mən həmsöhbət olarmıydım yanıma gələr isən,
Cənnətindən sənə yoldaş olan bir qılman istərəm.

Qocalıban quruyan ağaclar, min bir budaq olmayın,
Hər kəsə qol-qanad gələnimə təzə tər fidan istərəm.

Möcüzələrə daha inanmıram sehri ilə ovsunlaya
Röyalarda, xəyallarda görüşməyə güman istərəm.

Yağış olub, selə dönən gözyaşlarımızdan
Gözəlləşən göy çəmən, gülzari-məkan istərəm.

Çoxmu baxacaq bu həsrətli baxışlar yollara
Ey bağrına basan, qovuşmağa zaman istərəm.

Sadiq, məzarbaşında fəryad qoparırsan yenə,
Tanrıya dua edibən, səbrü-iman istərəm.

# KAŞ Kİ, “KAŞ KİLƏR” OLMAYAYDI...

**CANIM, AY BABA**

Uşaqlar deyir ki, ey şən yolka, tez yan,
Soyuq ellərdən gəlir, can şaxta baba.
Mənsə deyirəm ki, ey vaxt, bir dayan
Körpətək darıxdım, canım, ay baba.

Ah, ilk bayramdır gəlir, qalmışam sənsiz,
Nə sevincim qalıbdır, nə şən gülüşüm.
Görəsən sən orada, necəsən mənsiz?
Gəl bu gecə yuxuma, öpüm, görüşüm.

Təbrik elə məni, mənə xeyir-dua ver,
Məni ağuşuna al, daha ötürmə,
Gəl özünlə bağlı bir hədiyyə ver,
Sevincimi məndən alıb götürmə.

Baxıram yollara, gözüm olur çaş,
Darıxıram sənsiz, çarəsizəm mən.
Hər bayramı bizlə sən olaydın kaş.
Bu gecə masada süfrəsizəm mən.

Nə ocağımız yandı, nə yemək bişdi,
Nə qonağımız oldu, nə bir səs-səda,
Tale qismətidir, bu da bir işdi,
Şikayətim yoxdur, eyləmirəm naz.

Sənsiz yaralıyam, dərmanım hanı,
Sənsən qəlbimdəki, səni istərəm.
Bir sənin yerindir boş qalıb orda
Süfrənin başında görmək istərəm.

Nə bir dadı qalıb, nə də ki duzu,
Sənsiz bayramların nə mənası var?
Çatarmı dünyana hayım- harayım,
Səmaların yəqin öz sədası var.

Çox zaman bulud tək sıxılıram mən,
Göylər də mənimlə göz yaşı tökür,
Asiman ağlayır hey hönkür-hönkür
Çarə tapammıram, qırılıram mən.

Bu bayram da belə bir azdan keçər,
Hələ qarşımızda neçə bayram var.
Sənsiz bu təbriklər hədərdir, ötər,
Sənin cənnətinə salamlarım var.

